BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4* *Sosial-siyasi elmlər seriyası* *2024*

**UOT 343.533**

# ƏMTƏƏ NİŞANLARINDAN QANUNSUZ İSTİFADƏ ETMƏ HAQSIZ RƏQABƏTƏ SƏBƏB OLAN CİNAYƏT ƏMƏLLƏRİNDƏN BİRİ KİMİ

**H.R.HÜSEYNZADƏ**
***Bakı Dövlət Universiteti***
***hicret.huseynzade@gmail.com***

*Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Xüsusi hissəsinin İqtisadi fəaliyyət sahəsində olan cinayətlər Fəslində yer alan əmtəə nişanlarından qanunsuz istifadə etmə cinayəti, xüsusilə seçilir. Haqsız rəqabətin yaranmasına səbəb olan əməllərdən biri kimi əmtəə nişanlarından qanunsuz istifadə etmə cinayətinin tövsifi və cinayət-hüquqi xüsusiyyətlərinin təhlili müasir dövrdə cinayət hüququnun ən aktual məsələlərindən biridir. Bu məqalədə haqsız rəqabətə səbəb olan əməllərdən biri kimi əmtəə nişanlarından qanunsuz istifadə etmə cinayətinin Cinayət Məcəlləsindəki yeri və cinayət-hüquqi xüsusiyyətləri məsələlərinə nəzər salınacaqdır.*

**Açar sözlər:** əmtəə nişanı, haqsız rəqabət, qanunsuz istifadə etmə, xidmət nişanı, rəqabət hüququ

Bir sahibkarın bazarda təqdim etdiyi əmtəə və ya xidməti digər əmtəə (və ya xidmətlərdən) fərqləndirmək üçün istifadə etdiyi nişanların, başqa sözlə əmtəə nişanlarının mühafizəsi və bu sahədə törədilən hüquqpozmalar son dövrlərin ən aktual məsələləri sırasında yer alır.

Bazar subyektinin əqli mülkiyyətinin məhsulu olan əmtəə nişanı həmin bazar subyektinin bazara çıxardığı məhsulun təqdimat formasıdır, başqa sözlə məhz həmin nişan sayəsində məhsul bazarda məşhurluq qazanmaqla həmin bazar subyektinin işgüzar nüfuzunun və buna bağlı olaraq iqtisadi mənafeyinin yüksəlməsinə rəvac verir.

Bir çox hallarda bir sahibkarın əmtəəsini təqdim etmək üçün istifadə etdiyi nişan digər bazar subyekti tərəfindən qanunsuz olaraq bu və ya digər formada istifadə edilir ki, bu da nəinki həmin əmtəə nişanı üzərində müstəsna hüquq sahib olan digər bazar subyektinin hüquqlarının kobud surətdə pozulmasına, həmçinin bazarın iqtisadi baxımdan zəif subyekti olan istehlakçının aldadılmasına səbəb olur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (bundan sonra - Cinayət Məcəlləsi) əsasən iqtisadi fəaliyyət sahəsində olan cinayətlərdən biri də əmtəə nişanlarından qanunsuz istifadə etmədir. Belə ki, Cinayət Məcəlləsinin 197-ci maddəsinin şərhi baxımından bir şəxsə məxsus olan əmtəə və ya xidmət etmə nişanından, əmtəənin mənşə yerinin adından və ya eynicinsli əmtəələrin adına oxşar adlardan istifadə olunması xeyli miqdarda və ya külli miqdarda ziyan vurduqda cinayət məsuliyyətinin yaranmasına səbəb olur [1, s.191].

Şərh edilən cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, əmtəə və ya xidmət nişanından, əmtəənin mənşə yerinin adından qanunsuz istifadə həmin fərqlənmə nişanlarının qanuni sahiblərinin mənafelərinə və işgüzar nüfuzuna ziyan vurmaqla yanaşı, istehlakçıların saxta əmtəə və xidmətlərlə aldadılmasına, bəzən isə onların mənafelərinə daha ciddi ziyan vurulması ilə nəticələnir [5, s.78].

Qeyd edilən maddənin adından yola çıxaraq belə demək olar ki, əmtəə nişanlarından qanunsuz istifadə etmə əməlinin qəsd obyekti məhz əmtəə nişanlarından istifadə ilə əlaqədar ictimai münasibətlərdir.

Lakin maddənin dispoziyasının şərhi baxımından bu qənaətə gəlmək olur ki, sözügedən cinayət əməlinin predmeti qismində təkcə əmtəə nişanları yox, həmçinin xidmət etmə nişanı, əmtəənin mənşə yerinin adı və eynicinsli əmtəələrin adına oxşar adlar çıxış edir.

Hüquqi məfhum kimi əmtəə nişanının leqal anlayışı qüvvədə olan "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsində ifadə olunmuşdur. Həmin anlayışa əsasən əmtəə nişanı dedikdə, sahibkarın əmtəələrini və ya xidmətlərini digər sahibkarın əmtəələrindən və ya xidmətlərindən fərqləndirən və qrafik təsvir edilən nişan və ya nişanların hər hansı bir uzlaşması (kombinasiyası) nəzərdə tutulur [6].

Cinayət Məcəlləsinin sözügedən maddəsinin dispozisiyasında qeyd edilən digər qəsd obyekti kimi əmtəənin mənşə yerinin adı "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda ifadə olunan "coğrafi göstərici" termini ilə əhatə olunur və sözügedən Qanunda müstəqil anlayışı qeyd edilməyib. Sözügedən Qanunun 1-ci maddəsinə əsasən coğrafi göstərici hüquqi kateqoriya kimi əmtəənin mənşəyinin dövlət, bölgə, ərazi, yaxud müəyyən ərazidəki yer ilə (coğrafi obyektlə) bağlılığını müəyyənləşdirən, eyni zamanda bu əmtəənin xüsusi keyfiyyətini, şöhrətini və başqa xassələrini əsasən coğrafi mənşə ilə əlaqədar əks etdirən işarə kimi müəyyən edilib.

Qeyd edilən leqal anlayışdan da göründüyü kimi "coğrafi göstərici" termini "əmtəənin mənşə yerinin adı" terminindən daha genişdir.

**Bu baxımdan, Cinayət Məcəlləsinin 197-ci maddəsinin dispozisiyasında qeyd edilən "əmtəənin mənşə yerinin adı" ifadəsinin "coğrafi gös-**

**tərici” termini ilə əvəz edilməsi hüquqi mühafizə obyektinin daha da genişlənməsinə və mövcud qanunvericiliyin tələblərinə daha uyğun hesab edilə bilər.**

Maddənin dispozisiyasında qeyd edilən “xidmət etmə nişanı” ifadəsinin leqal anlayışı qanunvericilikdə ifadə olunmayıb. *Belə olan halda sual yaranır ki, “xidmət etmə nişanı” ifadəsinin hüquqi anlayışının ifadə edilməsinə ehtiyac varmı? Əmtəə nişanı anlayışı ilə xidmət etmə nişanı anlayışı arasında fərq nədən ibarətdir?*

Ümumdünya Əqli Mülkiyyət Təşkilatının 1957-ci il 15 iyun tarixli “Nişanların qeydiyyatı üçün əmtəə və xidmətlərin beynəlxalq təsnifatı barədə Nitsa Sazişi” ilə təsdiq edilmiş nişanların qeydiyyatı üçün əmtəələrin və xidmətlərin vahid təsnifatı hər bir əmtəə və ya xidmətin aid olduğu siniflər göstərilməklə əmtəələrin və xidmətlərin əlifba ardıcıllığını göstərən sırasını müəyyən edir [7].

Sözügedən Təsnifatdan da göründüyü kimi Ümumdünya Əqli Mülkiyyət Təşkilatının müəyyən etdiyi siyahı əmtəə və xidmət nişanlarını fərqləndirir və bir Təsnifatda onların siyahısını müəyyən edir. Başqa sözlə, bu sahədə əsas tənzimləyici hüquqi sənəd qismində çıxış edən Nitsa təsnifatı əmtəə və xidmət nişanlarının təsnifatını müəyyən etməklə hər iki nişanın hüquqi mühafizəsini şərtləndirir.

Lakin “xidmət nişanı” hüquqi kateqoriya kimi “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanunu ilə ayrıca mühafizə olunmur. Yəni həm sözügedən Qanunun adında, həm də həmin Qanunun “**Əmtəə nişanlarının və coğrafi göstəricilərin hüquqi mühafizəsi” adlı 3-cü maddəsində “xidmət nişanı” ifadəsi qeyd edilməmişdir.**

Lakin sözügedən qanunun 1-ci maddəsində əmtəə nişanı məfhumuna verilən leqal anlayışdan da göründüyü kimi qanunverici əmtəə nişanı dedikdə, sahibkarın əmtəələrini və ya xidmətlərini digər sahibkarın əmtəələrindən və ya xidmətlərindən fərqləndirən nişanı nəzərdə tutur. Başqa sözlə, bu anlayış vasitəsilə əmtəə nişanı və xidmət nişanı anlayışları eyniləşdirilir.

Bu baxımdan Cinayət Məcəlləsinin 197-ci maddəsinin hazırkı redaksiyasını uğurlu hesab etmək olar. Belə ki, həmin dispozisiya bir şəxsə məxsus olan əmtəə və ya xidmət etmə nişanından digər şəxsin qanunsuz istifadə etməsini cinayət əməli kimi nəzərdə tutub.

Göründüyü kimi Cinayət Məcəlləsi “xidmət nişanı” ifadəsini yox, “xidmət etmə nişanı” ifadəsini nəzərdə tutub, hansı ki bu ifadə “xidmət nişanı” ifadəsi ilə yaxından səsləşməklə mahiyyətcə eyni mənanı ehtiva edir.

Bu 2 məfhum arasında fərqi müəyyən etmək üçün Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 13-cü maddəsində ifadə edilən “sahibkarlıq fəaliyyəti”nin anlayışına diqqət yetirə bilərik. Həmin anlayışa əsasən sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak

istifadəsindən, **malların istehsalından və (və ya) satışından,** işlər görülməsindən və ya **xidmətlər göstərilməsindən** mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsi olan fəaliyyətdir [2, s.66].

Göründüyü kimi mülki qanunvericilikdə də malların (əmtəələrin) istehsalı və satışı ilə xidmətlərin göstərilməsi sahibkarlıq fəaliyyətinin ayrı-ayrı növləri kimi təsbit edilmiş və bu fəaliyyət növlərinin tənzimləmə mexanizmi müəyyən edilmişdir.

Qeyd edilən hüquqi aktların qarşılıqlı əlaqəsi onu deməyə əsas verir ki, əqli mülkiyyət obyekti kimi əmtəə nişanlarının əsas tənzimləyici hüquq aktı qismində çıxış edən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanunu həm ad baxımından, həm də tənzimləmə predmeti baxımından qüsurludur. Belə ki, sözügedən qanun məhz əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsini müəyyən edir. Əmtəə və xidmət isə iqtisadi kateqoriya olaraq fərqli məfhumlar olduğu üçün sözügedən qanuna müvafiq əlavələr edərək xidmət və ya xidmət etmə nişanlarının da ayrıca hüquqi mühafizəsini müəyyən etməklə bu boşluğu aradan qaldırmaq mümkündür.

Cinayət Məcəlləsinin 197-ci maddəsinin dispoziyasında qeyd edilən obyektlərdən biri də "eynicinsli əmtəələrin adına oxşar adlar"dır. Qeyd edilən kateqoriyanın adından da göründüyü kimi bu obyekt mahiyyətcə əmtəə nişanından yox, əmtəənin adından qanunsuz istifadəni nəzərdə tutur.

"Eynicinsli əmtəələrin adına oxşar adlardan istifadə" dedikdə iqtisadi kateqoriya kimi bir əmtəənin adında onunla eyni cinsdən olan başqa bir əmtəənin adına oxşar addan istifadə nəzərdə tutulur.

Belə olduğu təqdirdə "əmtəə nişanından qanunsuz istifadə" və "əmtəənin adından qanunsuz istifadə" məfhumlarını fərqləndirmək üçün "əmtəə nişanı"nın hüquqi anlayışına diqqət yetirmək zərurəti yaranır. Əmtəə nişanı mülki dövriyyənin subyekti kimi sahibkarın əmtəələrini və ya xidmətlərini digər sahibkarın əmtəələrindən və ya xidmətlərindən fərqləndirən və qrafik təsvir edilən nişan nəzərdə tutulur.

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanunun 4-cü maddəsində əmtəə nişanı kimi nişanların dairəsi müəyyən edilmiş və təsnifata sözlər, şəxsi adlar, hərflər, rəqəmlər, təsviri elementlər, əmtəələrin forması və ya onların qablaşdırılması, rənglərin və qeyd edilən məfhumların hər hansı uzlaşması daxil edilmişdir.

Göründüyü kimi əmtəə nişanı təkcə sözdən ibarət deyil, bu məfhuma əmtəələrin forması, rəngi, qablaşdırılması və ya onların uzlaşaması da daxildir.

Yəni əmtəə nişanı məfhumu hüquqi kateqoriya kimi özündə qrafik təsvirin olmasını da mütləq hal kimi şərtləndirir.

Əmtəənin adı isə bu və ya digər əmtəənin başqa əmtəələrdən fərqlənməsi üçün nəzərdə tutulan söz və ya söz birləşməsidir.

Bu nöqteyi-nəzərdən Cinayət Məcəlləsinin 197-ci maddəsinin dispoziyasında qeyd edilən "eynicinsli əmtəələrin adına oxşar adlar" və "əmtəə nişanı" məfhumları bir-birindən fərqli anlamlardır və fərqli hüquqi tənzimləməyə malikdir. Buna görə də maddənin adının "Əmtəə nişanlarından qanunsuz istifadə etmə" adlandırılmasını Cinayət Məcəlləsinin qüsuru hesab etmək olar.

Qeyd edilən cinayət əməli obyektiv cəhətin hərəkət formanı nəzərdə tutmaqla əmtəə nişanından qanunsuz istifadəni şərtləndirir. Yəni sözügedən cinayət əməlinin törədilməsi əmtəə nişanından hər hansı istifadəni yox, məhz qanunsuz isttifadəni nəzərdə tutur.

Əqli mülkiyyət obyekti kimi əmtəə nişanının hüquqi statusu əmlak hüququna dair müddəalarla tənzimlənir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 152.3-cü maddəsinə əsasən istifadə hüququ dedikdə, əmlakdan (əşyadan) onun faydalı təbii xassələrini hasil etməyin, habelə ondan fayda götürməyin hüquqi cəhətdən təmin edilmiş imkanı nəzərdə tutulur [2, s.159].

Bu anlayışdan çıxış edərək "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununun 3-cü fəsli "əmtəə nişanlarından və coğrafi göstəricilərdən istifadə"yə dair müddəaları nəzərdə tutmaqla əmtəə nişanından istifadənin konkret hədlərini və bu hüquqların həyata keçirilməsi mexanizmini müəyyən etmişdir.

**Əmtəə nişanlarından və coğrafi göstəricilərdən istifadə dedikdə,** əmtəə nişanının və coğrafi göstəricinin, bir qayda olaraq, onların aid edildiyi əmtəələrdə, əmtəə qablarında və göstərilən xidmətlərdə tətbiqi nəzərdə tutulur. Həmçinin onların reklamlarda, mətbu nəşrlərdə, lövhələrdə, Azərbaycan Respublikasında keçirilən sərgilərin və yarmarkaların eksponatlarında və əmtəələrin bazara çıxarılması ilə bağlı digər sənədlərdə tətbiqi də istifadə sayılır.

Cinayət Məcəlləsinin 197-ci maddəsi əmtəə nişanlarından məhz qanunsuz istifadəni cinayət əməli kimi nəzərdə tutmuşdur.

Əmtəə nişanından qanunsuz istifadənin nədə ifadə olunduğunu bilmək üçün ilk olaraq əmtəə nişanından istifadənin təzahür formalarını və bu istifadənin qanunvericilikdə yolverilən tənzimlənməsini müəyyən etmək zərurəti yaranır.

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən əmtəə nişanından istifadə dedikdə:

- əmtəə nişanından onların aid edildiyi əmtəələrdə, əmtəə qablarında və göstərilən xidmətlərdə tətbiqi;
- əmtəə nişanından reklamlarda, mətbu nəşrlərdə, lövhələrdə, Azərbaycan Respublikasında keçirilən sərgilərin və yarmarkaların eksponatlarında və əmtəələrin bazara çıxarılması ilə bağlı digər sənədlərdə tətbiqi;

- əmtəə nişanından istifadə məqsədilə əmtəənin istehsalı, anbara yığılması, bazara çıxarılması, idxalı, ixracı;
- Əmtəənin satış üçün təklif olunması, satışı və ya xidmətin göstərilməsi;
- Əmtəə nişanından istifadənin onun sahibi və ya bu Qanuna uyğun olaraq lisenziya müqaviləsi əsasında istifadə hüququ olan şəxs tərəfindən istifadəsi;
- Əmtəə istehsalçısının və ya xidmət göstərənlə aralarındakı müqaviləyə uyğun vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin istifadəsi nəzərdə tutulur [6].

Mövcud qanunvericiliyə əsasən başqa şəxsə məxsus əmtəə nişanından istifadənin qanuni əsası müəyyən edilmişdir. Belə ki, əmtəə nişanından əmtəə nişanının sahibi əmtəə nişanından istifadə hüququnu lisenziya müqaviləsi, əmtəə nişanına dair hüququ isə müqavilə əsasında həmin nişanın aid edildiyi əmtəələrin və xidmətlərin hamısı və ya bir hissəsi barədə başqa şəxsə verə bilər. Lisenziya müqaviləsi əmtəə nişanı sahibinin (lisenziarın) nişandan istifadə hüququnun başqa şəxsə (lisenziata) verilməsi barədə sənəddir. Bu müqavilə yalnız qeydə alınmış əmtəə nişanına aiddir və qeydiyyatda göstərilən əmtəələr və xidmətlər barəsində qüvvədə olur.

Qeyd edilən istifadə növlərindən kənar qanunvericiliyə zidd formada digər bazar subyektinə məxsus əmtəə nişanından istifadə edilməsi əmtəə nişanından qanunsuz istifadə hesab edilir.

Cinayət Məcəlləsinin 197-ci maddəsinin şərhi baxımından əmtəə nişanından qanunsuz istifadə etmə yalnız xeyli miqdarda və külli miqdarda ziyan vurduqda cinayət məsuliyyətinə səbəb olur.

Cinayət Məcəlləsinin 190-cı maddəsinin Qeyd hissəsindən məlum olduğu kimi Cinayət Məcəlləsinin 197.1-ci maddəsində "xeyli miqdar" dedikdə, əlli min manatdan yuxarı, lakin iki yüz min manatdan artıq olmayan məbləğ, 197.2-ci maddəsində "külli miqdar" dedikdə iki yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ başa düşülür [2. s.181].

Qeyd edilən məbləğlərdən az miqdarda ziyan vurulması ilə nəticələnən özgənin əmtəə və ya xidmət etmə nişanından, əmtəənin mənşə yerinin adından və ya eynicinsli əmtəələrin adına oxşar adlardan istifadə olunması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 412-ci maddəsinə əsasən inzibati məsuliyyətin yaranmasına səbəb olur [3, s.252].

Əmtəə nişanlarının əsas funksiyası bir növ əmtəəni (və ya xidməti) digər növ əmtəə (və ya xidmətdən) fərqləndirməkdir. Məhz bu mənada müvafiq qaydada dövlət qeydiyyatından keçmiş əmtəə nişanı ilə eyni və ya oxşar əmtəə nişanının digər shibkarlıq subyekti tərəfindən istifadə olunması əgər bu növ əmtəə (və ya xidmətin) təqdim edildiyi istehlakçıları çaşdırırsa, bu, haqsız rəqabət şəraitinin formalaşmasına şərait yarada bilər.

Həmçinin “Daxili bazarda ədalətsiz biznes-istehlakçı ticarət təcrübələri”nə dair Avropa Şurasının 11 may 2005-ci il tarixli 2005/29/EC saylı Direktivinə əsasən əmtəə nişanlarından qanunsuz istifadənin bazarda istehlakçıları çaşdıra bilməsini nəzərə alaraq bu cür hərəkət ədalətsiz kommersiya təcrübəsinin yaranmasına gətirib çıxaran əməl kimi səciyyələndirilmişdir [8].

Yəni istehlakçılar hər hansı şəxsə məxsus olan əmtəə nişanı adı altıda istehsal edilən və bazara çıxarılan məhsulun və ya xidmətin keyfiyyətinə etimad göstərərək mütəmadi olaraq həmin məhsulu və ya xidməti istehlak edirlər. Hər hansı bazar subyekti tərəfindən qanunsuz olaraq başqa şəxsə məxsus olan əmtəə nişanından eycinsli məhsulların istehsalı və ya xidmətlərin təklif edilməsi zamanı istifadə edilməsi və ya həmin əmtəə nişanının imitasiya edilməsi istehlakçıların çaşdırılmasına və ya aldadılmasına səbəb olmaqla istehlakçı hüquqlarının pozulmasına rəvac verir.

Digər tərəfdən, özgəsinə məxsus olan əmtəə nişanından qanunsuz istifadə edilməsi bazar subyektləri arasında formalaşmalı olan sağlam rəqabət münasibətlərinə təsir etməklə haqsız rəqabətin yaranmasına gətirib çıxarır. Yəni bu yolla bir bazar subyekti digər bazar subyektinin hər hansı əmtəə nişanı vasitəsilə əldə etdiyi nüfuzu və etimadı daha asan yolla “əldə etməklə” rəqibin təsərrüfat fəaliyyətinə, onun iqtisadi mənafeyinə ziyan vurmuş olur.

Doktrinaya nəzər yetirdikdə başqa şəxsə məxsus əmtəə nişanından qanunsuz istifadə edilməsi və digər növ haqsız rəqabətə səbəb olan əməllərin qəsd etdiyi dəyərlərin müxtəlifliyinin şahidi oluruq. Belə ki, Semih Sırrı Özdemirə görə, haqsız rəqabət cinayəti ilə qorunan hüquqi dəyər dürüst və pozulmamış rəqabət mühitidir; Çetin Arslanın sözlərinə görə, qorunan hüquqi dəyər ədalətli rəqabət mühiti, vicdansız davranış və təcrübələr nəticəsində zərər görən rəqiblərin kommersiya nüfuzu və istehlakçıların iqtisadi münasibətlərdə bərqərar olan hüquqlarıdır. G.Gürkaynakın fikrincə, iqtisadi səmərəliliyin qorunması yolu ilə sosial rifahdır [18, s.5]. Ö.Aydının sözlərinə görə, iştirakçıların kommersiya nüfuzu və hörməti istehlakçıların və müştərilərin hüquqlarıdır [19, s.415].

Fikrimizcə, haqsız rəqabət cinayəti ilə qorunan hüquqi dəyər bu əməllərdən zərərçəkən şəxslərin, yəni həm ayrı-ayrı rəqib bazar subyektlərinin kommersiya nüfuzu, həm də istehlakçı hüquqlarıdır.

Bundan fərqli olaraq Amerika rəqabət hüququ isə rəqabət edən tərəflərdən sadəcə birinə zərər vurulmasını əsas götürərək bunun üçün hüquqi müdafiə vasitəsi tapılmasını hədəfləməyib. Amerika hüquq doktrinasında dəstəklənən əsas ideya odur ki, “rəqabət hüququ rəqabəti edənləri yox, rəqabəti qoruyur”. Bu baxımdan haqsız rəqabətin yaranması ilə bazardan çıxmaq təhlükəsi ilə üzləşən bazar subyektinin əsas vəzifəsi digər bazar subyektinin ona ziyan vurmasını yox, məhz onun hərəkətlərinin rəqabətə zərər vuran hərəkət olduğunu isbat etməkdir [16]. Bu tip situasiyalarda rəqabətə

zərər vuran hərəkət eyni zamanda digər bazar subyektinə zərər vurmuş da ola bilər. Burada vacib məqam zərər verən hərəkətin rəqabət qanununun qarşısını almağı çalışdığı hərəkətlərlə eyni təbiətli olmasıdır [15, s.21].

Dünya tarixində "haqsız rəqabət" anlayışının yaranmasına nəzər yetirsək görərik ki, Qədim Misirdən Qədim Yunanıstana, Hindistan sivilizasiyalarından Roma İmperatorluğuna qədər bir çox cəmiyyətlərdə rəqabəti məhdudlaşdıran qaydalara rast gəlinmişdir. Romadakı "Actio servi corrupti" işi, ağaların digər qulları öz ticarət sirlərini açmaq üçün təhrik etməkdən qorumaqla məşğul olan, haqsız rəqabətin qarşısının alınması ideyasının mənşəyi hesab edilə bilər. Belə olan halda ağanın peşə fəaliyyətinin hər hansı bir zərərə səbəb olduğu halda köləni təhrik edənlərə dəymiş ziyanın iki mislini cərimə kimi ödəyəcəyi nəzərdə tutulurdu.

Hüquqi mənada ədalətsiz rəqabət ideyası ilk dəfə 1850-ci illərdə Fransada inqilabdan sonra yaranan ticarət azadlığının mənfi nəticələrini nəzərə alaraq irəli sürülüb. Haqsız rəqabət qanunu tacirlər arasında hüquqi münasibətləri tənzimləmək üçün yaransa da, zaman keçdikcə ictimai maraqların qorunmasına doğru dəyişdi. Haqsız rəqabətlə bağlı ilk hüquqi tənzimləmə 1896-cı il tarixli Alman Haqsız Rəqabət Aktıdır. Almaniyanın 1909-cu il qanununda haqsız rəqabət konsepsiyasına əsaslanan İsveçrənin Öhdəliklər Məcəlləsi 1912-ci ildə qəbul edilib. Bu qanunda rəqabət hüququ və azadlığının pozulmasına fərdi yanaşma qəbul edilmiş, tacirlər arasında dürüstlük qaydasına zidd olan və iqtisadi rəqabətdə rəqibi zəiflətməyə yönəlmiş hərəkətlər hüquq pozuntusu kimi tənzimlənmişdir [11, s.75].

Rəqabət anlayışı müasir iqtisadi sistemlərdə əvəzolunmaz vasitələrdən biridir. Daha sərfəli və keyfiyyətli mal və xidmətlər təklif etmək imkanı verən bu rəqabət sosial, iqtisadi və texnoloji inkişafı təmin edir. Bu səbəbdən də müasir və liberal hüquq sistemlərində azad rəqabət hüquq kimi qəbul edilir və bu rəqabətin subyektləri bu istiqamətdə həvəsləndirilir, rəqabətin pozulması halında onlara lazımi müdafiə tədbirləri həyata keçirilir.

İqtisadi kateqoriya kimi rəqabət azad bazar iqtisadiyyatının meyarıdır. Çünki rəqabətin olmadığı, mövcud qaydalara zidd davranışlarla dürüstlük qaydalarının pozulduğu bir mühitdə qiymətlərin tələb-təklif balansı ilə müəyyənləşməsi mümkün deyil. Bu kontekstdə bazar subyektləri arasındakı münasibətlərə təsir edən saxtakarlıq hərəkətləri və ədalətsiz kommersiya praktikaları qanuni qaydada qəbul edilməyən pozuntulardır [17, s.268].

Rəqabət anlayışı mal və xidmət bazarlarında eyni sahədə fəaliyyət göstərən subyektlərin digər bazar subyektlərinə nisbətən daha geniş istehlakçı bazasına çatmaq məqsədi daşımaq istəyini nəzərdə tutan bir anlayışdır. Bu rəqabətin hüquqi sərhədlər daxilində saxlanılması iqtisadiyyatın inkişafına, istehlakçıların hüquqlarının qorunmasına və istehsal texnologiyalarının inkişafına töhfə verir [13, s.29].

Bu rəqabətin qanuni sərhədlər daxilində olmaması rəqabətin ədalətsiz olması deməkdir ki, buna haqsız rəqabət deyilir. Doktrinada haqsız rəqabət anlayışı daha çox kommersiya rəqiblərinə zərər verən, onları iqtisadi fəaliyyətdən uzaqlaşdıran, ədəb, əxlaq və dürüstlük qaydalarına zidd olan hərəkətlər kimi ifadə edilir. Lakin kommersiya əməliyyatlarında qanunla müəyyən edilmiş qaydalara uyğun gələn rəqabət haqlı rəqabət sayılır və qanuni sayılır [14, s.193].

Əslində həm kommersiya müəssisələri, həm də onların fəaliyyət göstərdiyi bazarda iştirak edən istehlakçılar ədalətli və təhrif olunmamış rəqabət mühitinin təmin edilməsində paya malikdirlər və bu mühit onların hamısına fayda verir. Odur ki, haqsız rəqabət aktı daha çox rəqib kommersiya müəssisələri tərəfindən həyata keçirilsə də, istehakçıların da bu aktda iştirak etməsi mümkündür.

Bu halda ədalətsiz rəqabət hüququ azad rəqabət qaydasının yaradılmasını və sahibkarların, kommersiya müəssisələrinin, istehlakçıların və digər iqtisadi birliklərin ümumi maraqlarının müdafiəsini təmin edir. Bu istiqamətdə hüquqi tənzimləmələr rəqabət hüququnun dürüstlük qaydaları çərçivəsində həyata keçirilməsini təmin edir və bu hüquqdan sui-istifadənin qarşısını almağa yönəlib.

Türkiyə Ticarət Qanununa nəzər salsaq görərik ki, haqsız rəqabət məfhumuna verilən anlayış yuxarıda qeyd edilən yanaşma ilə çox yaxından səsləşir. Belə ki, həmin anlayışa əsasən "Aldadıcı və ya başqa şəkildə dürüstlük qaydasına zidd olan və rəqiblər arasında və ya təchizatçılar və müştərilər arasında münasibətlərə təsir edən kommersiya təcrübəsi ədalətsiz və qanunsuzdur".

Bu anlayışın ifadə etdiyi əsas qayə odur ki, dürüstlük qaydası haqsız rəqabət aktlarının müəyyən edilməsində həlledici rol oynayır və haqsız rəqabətin əsas elementini təşkil edir. Bazarın bütün aktorları dürüstlük qaydalarına uyğun hərəkət etməlidirlər. Bunun pozulması halında kommersiya etibarı və rəqabət mühiti pozulacağı üçün haqsız rəqabət yarana bilər.

Əmtəə nişanlarından qanunsuz istifadə etmə cinayət əməlinin Cinayət Məcəlləsindəki yerinə gəlincə qeyd etmək lazımdır ki, sözügedən cinayət əməli Cinayət Məcəlləsinin İqtisadi sahədə cinayətlər bölməsinin İqtisadi fəaliyyət sahəsində cinayətlər adlanan 24-cü fəslində yerləşir.

Qeyd edilən fəsilə nəzər yetirdikdə bəlli olur ki, iqtisadi fəaliyyət sahəsi çoxşaxəli bir sahə olduğu üçün iqtisadi fəaliyyətin ayrı-ayrı sferalarında yaranan ictimai münasibətlərə qəsd edən cinayət əməlləri müstəqil cinayət tərkibləri kimi həmin fəsildə yer almışdır. İqtisadi fəaliyyət sahəsində cinayətlər elə ictimai təhlükəli əməllərdir ki, onlar istehsal, mübadilə, maddi nemətlərin və xidmətlərin istehlakı sahəsində yaranan ictimai münasibətlərə qəsd edir [13, s.643].

Bu cinayətlərin iqtisadi fəaliyyət sahəsində törədilməsi onları birləşdirən cəhət olsa da, bu cinayətlər onların qəsd etdiyi obyektlərin növü baxımından bir-birindən fərqlənir.

Bu baxımdan belə qənaətə gəlmək olar ki, iqtisadi fəaliyyət sahəsində olan cinayətlərin müəyyən dərəcədə təsnifləşdirilməsinə və ayrı bir fəsildə ehtiva olunmasına zərurət yaranmışdır. Bu fəsildə yerləşən cinayətlərin bəziləri, o cümlədən əmtəə nişanlarından qanunsuz istifadə edilməsi bazarda haqsız rəqabətin yaranmasına səbəb olmaqla sahibkarlıq fəaliyyəti subyektlərinin əmlak mənafelərinə qəsd edir. Buna görə də Cinayət Məcəlləsinin 24-cü fəslində yer alan bəzi cinayət əməllərini, yəni Əmtəə nişanlarından qanunsuz istifadə etmə (CM-in 197-ci maddəsi), Bilə-bilə yalan reklam etmə (CM-in 198-ci maddəsi), İnhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma (CM-in 199-cu maddəsi), İstehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma (CM-in 200-cü maddəsi), Kommersiya və ya bank sirri olan məlumatları qanunsuz yolla əldə etmə və ya yayma (CM-in 202-ci maddəsi) əməllərinin törədilməsi ilə yaratdığı nəticələr baxımından Cinayət Məcəlləsində "Haqsız rəqabətə səbəb olan əməllər" adı altında təsnifləşdirmək uğurlu hesab edilə bilər. Bu termin Cinayət Məcəlləsi üçün yeni anlayış olmaqla qeyd edilən cinayət əməllərinin qəsd etdiyi ictimai münasibətlər baxımından daha uyğun fəsildə yer almasını təmin etmiş olacaq.

01 iyul 2024-cü il tarixindən qüvvəyə minən Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi bir çox qanunvericilik aktlarına, o cümlədən Cinayət Məcəlləsinə dəyişiklik edilməsi üçün bir təkan olmuşdur. Bu Məcəllə Azərbaycan Respublikasında iqtisadiyyatın bütün sahələrində fəaliyyət göstərən təsərrüfat subyektlərinin öz aralarında yaranan və rəqabətə təsir edən münasibətləri tənzimləməklə haqsız rəqabətin kokret formalarının dairəsini müəyyən etmişdir. Müştərilərin çaşdırılması və aldadılması bazarda haqsız rəqabətin yaranmasına səbəb olmaqla bir tərəfdən istehlakçıların, digər tərəfdən sahibkarlıq fəaliyyəti subyektinin mənafeyinə ziyan vurulmasını şərtləndirən müxəlif formalarda ifadə olunur [4, s.44].

Bu formalardan biri kimi başqa şəxsə məxsus olan əmtəə və ya xidmət etmə nişanından qanunsuz istifadə etməni misal göstərmək olar.

Oxşar yanaşmanı Türkiyə Ticarət Qanununa (bundan sonra TTQ) nəzər yetirdikdə də görmək mümkündür. Belə ki, TTQ-nin Haqsız rəqabət haqqında müddəaları ehtiva edən 4-cü hissəsinin "Dürüstlük prinsipini pozan davranışlar və kommersiya praktikaları" adlı 55-ci maddəsində "Başqasının əmlakı, iş məhsulları, fəaliyyəti və ya işləri ilə çaşqınlığa səbəb olan tədbirlər görmək" haqsız qərabətə səbəb olan əməllərdən biri kimi nəzərdən keçirilir.

Azərbaycan Respublikasının qanunvericiliyinin sistemindən də göründüyü kimi haqsız rəqabətə səbəb olan əməllər Azərbaycan Respublikasının

Rəqabət Məcəlləsində, haqsız rəqabətə səbəb olan cinayət əməlləri isə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində ifadə olunub.

Bundan fərqli olaraq Türkiyə Ticarət Qanununda həm haqsız rəqabətə səbəb olan əməllər, həm də haqsız rəqabət cinayətləri ifadə olunmuş və "Haqsız rəqabət" adı altında bir fəsildə cəmlənmişdir.

Bu təcrübəni müəyyən dərəcədə mill qanunvericiliyə tətbiq etməklə "haqsız rəqabətə səbəb olan cinayətlər" adı altında bu sahədə törədilən cinayətləri bir fəsildə ifadə etmək həm cinayət qanunvericiliyində sistemliliyin yaranmasına, həm də haqsız rəqabətə səbəb olan cinayət əməllərinin dairəsini müəyyən etməyə səbəb olacaqdır.

Qeyd edilən təcrübənin tətbiqi zamanı nəzərə almaq lazımdır ki, Türkiyə Ticarət Qanununun "Haqsız rəqabət cinayətləri" adlanan 62-ci maddəsi göndərici norma olmaqla həmin Qanunun 55-ci maddəsində sadalanan haqsız rəqabətə səbəb olan əməllərə göndəriş edir, 55-ci maddə isə məzmun etibarilə dürüstlük prinsipinə zidd olan əməllərin məhdud şəkildə sadalanmasını deyil, daha çox nümunələr göstərməklə əsas əməlləri sadalayır və haqsız rəqabətə səbəb olan əməllərin sadalanan əməllərlə kifayətlənmədiyini ifadə edir, bu isə cinayət hüququnun əsas prinsiplərindən olan qanunçuluq prinsipi ilə ziddiyyət təşkil edir.

Belə ki, Türk Cəza Qanunun "cinayət və cəzada qanunilik prinsipi" adlı 2-ci maddəsinin birinci bəndində aşağıdakı tənzimləmə yer alır: "Heç kim qanunla açıq-aşkar cinayət sayılmayan əmələ görə cəzalandırıla və ya onun barəsində təhlükəsizlik tədbirləri görülə bilməz" [10].

Analoji prinsip Azərbaycan Respublikasının Cinayət Məcəlləsində "Əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza və digər cinayət-hüquqi xarakterli tədbirlər yalnız bu Məcəllə ilə müəyyən edilir" formasında təsbit edilmişdir.

Bu da onu deməyə əsas verir ki, Türkiyə Ticarət Qanununda yer alan "haqsız rəqabət cinayələri" maddəsi normanın quruluşu baxımından uğurlu ifadə olunsa da, müəyyən qüsurlarla müşayiət olunur. Sözügedən təcrübənin milli qanunvericiliyə tətbiqi zamanı bu çatışmazlıqların nəzərə alınması və cinayət hüququnun ümumi prinsiplərinə uyğun normaların milli qanunvericiliyə daxil edilməsi zəruridir.

Beləliklə, araşdırmanın nəticəsi olaraq bu qənaətə gəlmək olar ki, əmtəə nişanlarından qanunsuz istifadə etmə cinayəti haqsız rəqabətə səbəb olan əməllərdən biri kimi rəqabət qanunvericiliyində və hüquq doktrinasında nəzərdə tutulsa da Azərbaycan Respublikasının Cinayət Məcəlləsində "haqsız rəqabət" anlayışı hüquqi kateqoriya kimi nəzərdə tutulmamış, haqsız rəqabətin yaranmasına səbəb olan cinayət əməlləri iqtisadi fəaliyyət sahəsində olan cinayət əməli kimi kriminallaşdırılmışdır.

Bu baxımdan hesab edirik ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin İqtisadi sahədə cinayətlər bölməsinə "haqsız rəqabətə səbəb olan cinayətlər" adlı yeni fəsil əlavə edlməli və əmtəə nişanlarından qanunsuz istifadə etmə cinayəti həmin fəsilə əlavə edilməlidir.

Həmçinin şərh edilənlər onu deməyə əsas verir ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 197-ci maddəsinin adı qüsurludur. Belə ki, maddənin adı "əmtəə nişanlarından qanunsuz istifadə etmə" adlandırılsa da, maddənin dispoziyasında təkcə əmtəə nişanlarından yox, həmçinin xidmət etmə nişanından, əmtəənin mənşə yerinin adından, eynicinsli əmtəələrin adına oxşar adlardan qanunsuz istifadə etmə nəzərdə tutulmuşdur. Buna görə də hesab edirik ki, AR Cinayət Məcəlləsinin 197-ci maddəsinin adı dispoziyaya uyğunlaşdırılmalı və ya maddənin adında ümum ifadədən istifadə edilməklə maddəyə Qeyd hissəsi əlavə edilməli və müvafiq ifadəyə izah verilməlidir.

Bundan başqa, əmtəə nişanları və onlardan istifadə sahəsində yaranan ictimai münasibətləri tənzimləyən əsas hüquqi akt qismində çıxış edən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanunu "xidmət etmə" nişanını ayrıca hüquqi kateqoriya kimi nəzərdə tutmamış, əmtəə nişanı ilə xidmət etmə nişanı arasında bərabərlik işarəsi qoymuşdur. AR Cinayət Məcəlləsinin 197-ci maddəsinin və "Nişanların qeydiyyatı üçün əmtəə və xidmətlərin beynəlxalq təsnifatı barədə Nitsa Sazişi"nin şərhi baxımından bu qənaətə gəlmək olar ki, əmtəə nişanı və xidmət etmə nişanı ayrı-ayrı kateqoriyalar olduğu üçün fərqləndirilməli və buna uyğun olaraq "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda "xidmət etmə" və ya "xidmət nişanı" kateqoriyasının ayrıca tənzimlənməsi nəzərdə tutulmalıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. - Bakı: Qanun, - 2024, - 487 s.
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. - Bakı: Qanun, - 2024, - 695 s.
3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. - Bakı: Qanun, - 2024, - 544 s.
4. Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi. - Bakı: Hüquq Yayın evi, - 2025, - 128 s.
5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası. - Bakı: Hüquq Yayın evi, - 2023, - 872 s.
6. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanunu. https://e-qanun.az/framework/3293
7. Ümumdünya Əqli Mülkiyyət Təşkilatının 1957-ci il 15 iyun tarixli "Nişanların qeydiyyatı üçün əmtəə və xidmətlərin beynəlxalq təsnifatı barədə Nitsa Sazişi" https://frameworks.e-qanun.az/2/f_2029.html
8. "Daxili bazarda ədalətsiz biznes-istehlakçı ticarət təcrübələri"nə dair Avropa Şurasının 11 may 2005-ci il tarixli 2005/29/EC saylı Direktivi https://eur-lex.europa.eu/eli/dir/2005/29/oj/eng
9. Türk Ticaret Kanunu

https://www.mevzuat.gov.tr/mevzuat?MevzuatNo=6102&MevzuatTur=1&MevzuatTertip=5
10. Türk Ceza Kanunu https://www.mevzuat.gov.tr/mevzuat?MevzuatNo=5237&MevzuatTur=1&MevzuatTertip=5
11. Самедова Ш.Т. Уголовного право Азербайджанской Республики. Особенная часть: в двух частях. - Баку: Адильоглы, - 2020, - т.1−824 с;
12. Akpınar, E., Haksız Rekabet Düzenlemelerinin Tarihi Gelişimi ve Genişleyen Uygulama ve Koruma Alanı // KTO Karatay Üniversitesi Hukuk Fakültesi Dergisi, - 2019, - 4(1), - s.51-84
13. Kaplan, Ahmet Galip. Elektronik Ortamda İşlenen Haksız Rekabet Halleri, Baskı, - Ankara: Onikilevha, - 2020, - s. 218.
14. Özel, Çağlar & Özdemir, Semih Sırrı. Türk Hukukunda Haksız Rekabete İlişkin Düzenlemeler // Dokuz Eylül Üniversitesi Hukuk Fakültesi Dergisi, Özel S: 11, 2017, - C: 9, - s. 193;
15. Emrah Uran. Amerika Birleşik Devletleri Rekabet Hukuku: Teori ve Uygulama. Baskı, - İstanbul: Onikilevha, - s. 517
16. Christopher L.Sagers. Antitrust Examples, Explanations, Walter Kluwer Law and Business, Second edition, - 2014
17. Çetin Arslan. Türk Ticaret Kanunu'nda Haksız Rekabet Suçu. / International conference on eurasian economies, Hacettepe Enstitüsü, - 2016, - s.268-272
18. Gürkaynak, Gönenç. Türk Rekabet Hukuku Uygulaması İçin "Hukuk ve İktisat. Perspektifinden "Amaç" Tartışması". – Ankara: Rekabet Kurumu, - 2003,- s.114
19. Hüseyin Ertuğrul. Türk Ceza hukukunda haksız rekabet suçu. // TFM, - 2022, - C: 8, - S: 2, - s. 409-427.

## НЕЗАКОННОЕ ИСПОЛЬЗОВАНИЕ ТОВАРНЫХ ЗНАКОВ КАК ФАКТОР НЕДОБРОСОВЕСТНОЙ КОНКУРЕНЦИИ И ПРЕСТУПНОГО ДЕЯНИЯ

**Х.Р.ГУСЕЙНЗАДЕ**

### РЕЗЮМЕ

Особое внимание уделяется преступлению, связанному с незаконным использованием товарных знаков, которое включено в раздел «Преступления, совершаемые в сфере экономической деятельности» Особенной части Уголовного кодекса Азербайджанской Республики. Определение состава преступления незаконного использования товарных знаков как одного из преступных деяний, способствующих недобросовестной конкуренции, и анализ его уголовно-правовой характеристики являются одним из наиболее актуальных проблем уголовного права современности. В статье анализируются место преступления незаконного использования товарных знаков, определенных в Уголовном кодексе, и его уголовно-правовая характеристика как одного из преступных деяний, способствующих недобросовестной конкуренции.

**Ключевые слова:** товарный знак, недобросовестная конкуренция, незаконное использование, знак обслуживания, конкурентное право

# ILLEGAL USE OF TRADEMARKS AS ONE OF THE CRIMINAL ACTS CAUSING UNFAIR COMPETITION

**H.R.HUSEYNZADE**

**SUMMARY**

The crime of illegal use of trademarks, which is included in the Chapter of the Special Part of the Criminal Code of the Republic of Azerbaijan on Crimes Committed in the Field of Economic Activity, are particularly distinguished in the system of the Special Part of the Criminal Code. The description of the crime of illegal use of trademarks as one of the acts leading to the creation of unfair competition and the analysis of its criminal-legal features are one of the most relevant issues of criminal law in modern times. This article will consider the place of the crime of illegal use of trademarks as one of the acts leading to unfair competition in the Criminal Code and its criminal-legal features.

**Keywords:** trademark, unfair competition, illegal use, service mark, competition law